# Avropa qurumları insan hüquqları və demokratiya anlayışlarından sui-istifadə edirlər

**"Avropa qurumları artıq çoxdandır ki, insan hüquqları və demokratiya anlayışlarından sui-istifadə edərək özünün korporatıv maraqları naminə bu və ya digər dövlətə təzyiq göstərir. Halbuki bu gün Fransa, Almaniya, Belçika fermerləri kütləvi aksiyalar keçirərək mürtəce islahatlara qarşı çıxırlar. Lakin fermerlərin haqlı tələbləri adıçəkilən dövlətlər tərəfindən nəzərə alınmır".**

Bu sözləri AZƏRTAC-a müsahibəsində Türkiyənin "Ulusal" televiziya kanalının siyasi şərhçisi Yakub Aslan deyib.

O bildirib ki, öz ölkəsində insan hüquq və azadlıqlarını təmin edə bilməyən dövlətlərin başqa ölkələrdə hüquq axtarması ikili standartlar siyasətinin yürüdülməsindən xəbər verir: "Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycana qarşı nümayiş etdirdiyi ədalətsiz mövqe də rəsmi Bakıya təzyiq göstərməkdən başqa bir şey deyil. Maraqlıdır ki, ictimai-siyasi sabitliyin hökm sürdüyü Azərbaycanda insan hüquqlarının pozulmasından danışan almaniyalı deputat Frank Şvabe öz ölkəsində hüquqları pozulan fermerlərin məsələsini AŞPA sessiyasında niyə qaldırmır? Əgər azərbaycanlılar onun üçün belə əzizdirsə, onda nəyə görə 30 il müddətində Qarabağdan qaçqın düşənlər barədə bir söz də deməyib. Ermənistanın işğalçılığı nəticəsində Xocalı soyqırımı törədildi, girov götürülmüş mülki vətəndaşlar işgəncələrə məruz qaldılar, amma nə AŞPA, nə də onun almaniyalı deputatı bu barədə bir söz belə demədi, etiraz etmədi, əksinə, işğalçıya hər zaman yardım göstərdilər".

Yakub Aslan deyib ki, erməni lobbisinin puluna və parlamentə seçilmək üçün səsinə möhtac qalan AŞPA-nın bəzi deputatları müstəmləkəçilik siyasətinə qayıtmaq istəyindədirlər. Məsələnin mahiyyəti ondan ibarətdir ki, bu gün Avropada iqtisadi-sosial vəziyyət gündən-günə pisləşir. Ötən il inflyasiya 10 faizi ötüb, istehlak mallarının qiyməti 5 dəfə artıb. İqtisadi durğunluğun 2025-ci ilə kimi davam edəcəyi bildirilir. Avropada pensiya və vergi islahatları sosial partlayışla nəticələnib.



Ekspert diqqətə çatdırıb ki, azsaylı xalqları istismar etmək, insan hüquqları və demokratiya bəhanəsi ilə kiçik dövlətləri təsir altında saxlayaraq təbii sərvətlərini talamaq Avropanın ənənəvi siyasi xəttidir. Bu boyunduruğu qəbul etməyənlər isə insan hüquqlarını pozmaqda, demokratiyaya əməl etməməkdə ittiham olunur. Türkiyə 50 il müddətində Avropa İttifaqı (Aİ) ilə danışıqlar aparsa da, ittifaqa üzv qəbul edilmədi. İqtisadiyyatı, demokratik inkişaf səviyyəsi və digər göstəriciləri Türkiyədən qat-qat aşağı olan dövlətlər Aİ-yə qəbul edildi. Lakin Türkiyə bir müsəlman ölkəsi olduğu üçün islamofobiya ilə üzüzə qaldı.

"Azərbaycanın iqtisadi inkişafı və Qarabağı Ermənistanın işğalından azad etməsi Avropa qurumları tərəfindən həzm olunmur. Bu qurumlar hökmranlıq edərək bütün məsələləri özlərinin prizmasından həll etmək istəyirlər. Azərbaycanın tarixi torpaqlarını azad etməsi Avropanın siyasi qurumlarını narahat edir. Məqsəd heç də insan hüquqlarını müdafiə etməkdə deyil, dünyanın müxtəlif bölgələrini nəzarətdə saxlamaq və buradakı dövlətləri müstəmləkəyə çevirməkdir. Lakin suveren dövlətlərin, o cümlədən Azərbaycan xalqının siyasi iradəsi Avropa siyasətinin reallaşmasına imkan vermir. Ona görə də müxtəlif qurumlar ədalətsiz və siyasi manipulyasiya xarakteri daşıyan qərarlar qəbul edirlər", - deyə siyasi şərhçi vurğulayıb.





Azərbaycan.- 2024.- 3 fevral, № 23.- S.5.